# GƏNCƏ-244 VƏ GƏNCƏ-274 PERSPEKTİVLİ PAMBIQ SORTLARININ TƏSƏRRÜFAT QİYMƏTLİ ƏLAMƏTLƏRİNİN ÖYRƏNİLMƏSİ

**Ələddin Tağıyev, Jalə Hüseynzadə*, Güləbətin Eyyubova**

*AR KTN Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu, Gəncə*
**jala.hoseinn@gmail.com*

Pambıq istehsalının dinamik inkişafını təmin etmək, toxuculuq sənayesinin mahlıca olan tələbatını ödəmək üçün məhsuldar, tezyetişən, xəstəlik və zərərvericilərə qarşı davamlı, yüksək lif çıxımına və keyfiyyətinə malik, xarici şərait amillərinə görə plastik, toxumun tərkibində yağın miqdarı çox olan yeni pambıq sortlarının yaradılması istiqamətində elmi-tədqiqat işlərinin aparılması böyük əhəmiyyət kəsb edir.

Seleksiya prosesinin ilkin mərhələsində zəngin genetik potensiala malik hibrid formalar almaq üçün hər il hibridləşmənin növarası, coğrafi uzaq, bekross, mürəkkəb pilləli və s. üsullarından istifadə edilir.

Aparılan istiqamətli seleksiya işi nəticəsində Gəncə-244 və Gəncə-274 pambıq sortları yaradılmışdır.

**Tədqiqatın metodikası.** Yeni pambıq sortları AR KTN Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun təcrübə sahəsində Gəncə-114 standart kimi götürülərək müqayisəli şəkildə öyrənilmişdir. Səpin optimal müddətdə yüksək aqrotexnika fonunda aparılmışdır. Səpin zamanı ləklərin uzunluğu 30 m, 4-cərgəli və 4 təkrardan ibarət olmaqla 90 x 10 sm sxemində səpin aparılmışdır [5, 6].

**Tədqiqat hissəsi.** Gəncə-244 və Gəncə-274 pambıq sortlarının biomorfoloji, təsərrüfat qiymətli əlamətləri və lifin texnoloji keyfiyyət göstəriciləri aşağıda təsvir edilir.

*Gəncə-244 pambıq sortu* – coğrafi uzaq 3038 və Foster sortnümunələrinin çarpazlaşmasından alınan hibrid formalardan nəsillər üzrə çoxtəkrarlı istiqamətli seçmə yolu ilə yaradılmışdır. Gəncə-244 pambıq sortu orta lifli *G.hirsutum* L. növünə aiddir. Kolu yığcam, piramidaşəkillidir, hündürlüyü 90-110 sm-dir. Gövdəsi yoğun və möhkəmdir, yatmağa qarşı davamlı, solğun-yaşıl rəngli, nisbətən zəif tüklüdür. Meyvə budaqları iti bucaq altında əmələ gələrək, I-II budaqlanmaya aiddir. Monopodial budaqları 1-2 ədəd olur. Yarpaqları orta irilikdə, tünd-yaşıl rəngli, orta dərəcədə tüklüdür, 3-5-dilimlidir, yarpaq ayası düzdür. Çiçə-yi orta irilikdə, sarımtıl rəngdədir. Ləçəkləri və tozcuqları sarı rəngdədir. Qozası iridir, səthi hamar və tünd-

yaşıldır, forması uzunsov, yumurtavari olmaqla buruncuğu küt, ulduzcuqludur. Çiyidi orta böyüklükdə, orta dərəcədə tüklüdür, çirkli-zümrüdü rəngdədir. 1000 ədəd çiyidin çəkisi 117 qramdır. Vilt xəstəliyinə nisbətən davamlıdır. Gəncə-244 pambıq sortu tezyetişən olmaqla vegetasiya müddəti 122 gündür.

Təsərrüfat göstəriciləri: Sortun potensial məhsuldarlığı 50-55s/ha-dır. Müsabiqəli sortsınağında orta məhsuldarlığı 44,0 s/ha, bir qozada olan xam pambığın kütləsi 6,0 qr-dır. Lifin uçağanda uzunluğu 36,1 mm, lif çıxımı 40,2%, lif məhsulu – 17,6 s/ha-dır.

Lifin texnoloji keyfiyyəti: Lifin qırılma yükü 4,9 q.q., xətti sıxlığı 6061 m/teks, nisbi qırılma uzunluğu 29,4 q.q./teks, ştapel uzunluğu – 35/36 mm-dir. Gəncə-244 pambıq sortu IV tipin tələbatına cavab verir.

*Gəncə-274 pambıq sortu –* "660 x Tolya" hibrid kombinasiyasından çoxtəkrarlı istiqamətli seçmə yolu ilə yaradılmışdır. Gəncə-274 pambıq sortu orta lifli *G.hirsutum* L. növünə aiddir. Kolu yığcam, piramidalformalıdır, hündürlüyü 100-120 sm-dir. Gövdəsi yoğun və möhkəm olur, yatmağa qarşı davamlıdır. Birinci meyvə budağı 5-6-cı buğumda yerləşir. Tünd-yaşıl rəngli, I-II tip budaqlanmaya mənsubdur. Yarpaqları orta irilikdə, açıq-yaşıl rəngli, 3-5-dilimlidir. Çiçəyi otra irilikdə, açıq-sarıdır. Ləçəkləri və tozcuqları sarı rəngdədir. Qozası orta iri, səthi hamar, ovalvari formalı, açıq-yaşıl rənglidir, məhsulu tökülmür, 4-5-dilimlidir. Çiyidi orta böyüklükdə, orta dərəcədə tüklüdür, çirkli-zümrüdü rəngdədir. 1000 ədəd çiyidin çəkisi 116 qramdır. Gəncə-114 pambıq sortu tezyetişən olmaqla vegetasiya müddəti 119 gündür. Təsərrüfat və lifin texnoloji keyfiyyət göstəriciləri: Sortun müsabiqəli sortsınağında orta məhsuldarlığı 45,2 s/ha, bir qozada olan xam pambığın kütləsi 5,7 qr, lifin uçağanda uzunluğu 36,4 mm, lif çıxımı 40,0%, lif məhsulu isə 18,0 s/ha-dır. Lifin qırılma yükü 4,7 q.q., xətti sıxlığı 5953 m/teks, nisbi qırılma uzunluğu 27,8 q.q./teks, ştapel uzunluğu 35/36 mm-dir.

Gəncə-274 pambıq sortunun lifinin texnoloji keyfiyyəti V tipin tələbatına dolğun cavab verir. Vilt xəstəliyinə 5,8% sirayətlənməklə sort xəstəliyə davamlı hesab edilir.